السنّة النبوية وعلومها
www.sunnah.global

# Zülmət gecənin parçaları kimi fitnələr gəlmədən öncə saleh əməllərə tələsin,

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun(Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "Zülmət gecənin parçaları kimi fitnələr gəlmədən öncə saleh əməllərə tələsin, insan mömin olaraq sabahlayıb, kafir olaraq axşamlayar, mömin olaraq axşamlayıb, kafir olaraq sabahlayar. Az dünya malı qarşılığında dinini satar."
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər(Allahın salavatı və salamı onun üzərinə olsun) mömini həvəsləndirir ki, saleh əməllər qeyri-mümkün olmamış və ya onlara mane olan fitnə və şübhələr gəlməmiş, saleh əməllər işləməyi tezləşdirsinlər və çoxaltsınlar. Çünki, bu şübhə və fitnələr gecə kimi zülmətdir, orada haqq batilə qarışır və insanlar üçün onları bir-birindən ayırmaq çətinləşir. Və onun şiddətindən insan o qədər çaşqınlığa düşür ki, hətta o, mömin kimi sabahlayıb, axşam kafir olur və ya axşam mömin olduğu halda, kafir kimi sabahlayır, dünya həyatının keçici ləzzətlərinə görə dinini tərk edir.

https://sunnah.global/hadeeth/az/show/3138

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee